# Mirmehdi Ağaoğlu

## Hekayələr

# FASİLƏ

Axır ki... Şüşə qapını aça-aça nişanı validatora toxundurdu. Cihazın sinirləri iynələyən cüyültüsünü kim bilir neçənci dəfə eşidirdi.

Hava ılıq və günəşli idi. Yazın gəlişi artıq hiss olunurdu. Təzə-təzə cücərməyə başlayan yarpaqlar budaqlarda üzük qaşı kimi parıldayırdı. O, bu mənzərə üçün sinov gedirdi, di gəl ki, gün ərzində bunu üst-üstə 10 dəqiqədən artıq seyr etmək imkanı olmurdu. Cəmi üç dəqiqə fasilə etmək mümkündü.

Qapıdan aralanıb binanın tininə gəldi. Siqaret yandırıb gövdəsini yola əymiş qoca çinarın altında dayandı.

Bu gün birinci siqareti idi. Səhərlər yuxudan ayılıb öskürə-öskürə tualetə gedəndə nəfəs yollarını tutmuş kəhrəbayı bəlğəmi çanağa tüpürmək ona insana yaraşmayacaq qədər ədəbsiz göründüyündən və axır vaxtlar nəfəsi tez-tez təntidiyindən siqareti tərgidə bilməsə belə, heç olmaya azaltmağı düşünürdü.

Çalışırdı ki, birinci siqaretini mümkün qədər gec çəksin. İlk iki gün yaxşı başlamışdı. On birdən tez çəkmirdi. Bu gün isə əhdinə yarımca saat xəyanət eləyəsi oldu. Daha dözə bilməmişdi.

İşdəki gərginlik onu yaman yorurdu. Yenə mühasiblə sözləri çəp gəlmiş, dalaşmışdılar. Heç cür yola getmirdilər. Mühasibin verdiyi saysız-hesabsız tapşırıqlar nəinki iş vaxtını, bütün gününü, işdən sonrakı zamanını da məşğul edirdi. İşdə olanda başqa şey barədə düşünə bilmirdi. Çölə çıxdığı siqaret fasilələrində də key kimi olurdu. Nə qədər ailəsi, məişət qayğıları, həvəsləri barədə düşünmək istəsə də, başını məşğul edən iş məsələləri içindən heççə birini dartıb çıxara bilmirdi. Heç ətrafı da doğru-düzgün müşahidə etmirdi. Bütün günü kompüterə zillənmiş gözləri elə bil artıq günəşə, ağaclara, buludlara, yoldan ötən maşınlara yadırğamışdı.

Siqaretə çıxanda çox nadir hallarda evə zəng edirdi. Əsasən nahar fasiləsində zəng etmək onda vərdiş halını almışdı. Bəzən ev sarıdan narahatlıq keçirdiyinə görə, ya içindən gəldiyi üçün deyil, sadəcə alışqanlıq olduğuna görə zəng edirdi.

Gecə yatanda, səhər işə tələsəndə özünü tənbehləyirdi ki, vaxt tapıb heç olmasa siqaret fasiləsinə çıxanda dost-tanışına, qohum-əqrəbasına zəng edəcək. Hər dəfə də unudurdu. Baş qarışıqlığından dostları, qohumları ilə yaranan bu uzaqlaşma onu ətrafdan, cəmiyyətdən getdikcə daha çox təcrid edirdi. Tənbehlərə verdiyi cavablar

isə heç kəsi qane etmirdi. Başının işdən açılmadığına inanan yox idi. Yaxşı ki, bu siqaret fasilələri vardı. Bir an da olsa işdən ayrılırdı.

Heç nə, siqaret yandırıb ötən maşınlara, qəşəng qadınların əndamına baxırdı. Bəzən səmada oynaşan mavi buludlara dalırdı. Beləcə "İndicə içəri girəcəm həngamə yenidən qopacaq" qorxusunu içində basdıra-basdıra hər şeyi unutmağa çalışırdı.

Uzaqdan, svetaforun yanından sağ əlində bir dəstə bıçaq, digər əlində dama-dama "aeroport zənbili" tutmuş bir kişi göründü. Qırımından hiss olunurdu ki, yaxınlaşıb yanında dayanacaq. Uzaqdanca onu nişan almışdı.

- Qardaş bir bıçaq götür.

- İstəmirəm. - Elə bildi alverçi çıxıb gedəcək.

Əlində kustar üsulla düzəldilmiş, dəstəyi qırmızı, göy, qara rəngli mətbəx bıçaqları tutmuşdu. Üstəlik arıq, uzun barmaqları arasına qırmızı izoliyasiyalı iki kəlbətin, bir də yumru yeyə sığdırmışdı. Yeyəyə paltar zivəsi kimi rəngbərəng qayçılar keçirilmişdi. Arıq, balacaboy adam idi. Bütün səyyar alverçilər kimi üst-başı tökülürdü.

Belələrini Valeh hər gün, azı bir dəfə görürdü. Qab-qacaq, kəkotu, dərman bitkiləri, kiçik məişət əşyaları, ucuz ətir dolu zənbillərlə küçəbəküçə gəzər, idarələrə, mağazalara, məhəllələrə, dalanlara girib ucuz qiymətə məhsullarını təklif edərdilər.

Alverçi yenə dilləndi:

- Qardaş, bıçaq al.

- A kişi mən işdəyəm, bıçağı neyləyirəm?

- Lazım olar.

- Qəssabam?

Kişi inadla təkrarlayırdı: - Götür evdə işlədərsən. Siftə elə, götür. - Getmək fikri yox idi.

Alverçi "ev" deyəndə yadına düşdü ki, zəng etməliydi. Səhər qanqaraçılıqla çıxdığına görə yolda qərara almışdı ki, fasilədə zəng edib arvadının könlünü alsın.

- Pulum yoxdu, sağ ol.

Alverçi əl çəkmirdi, elə hey dayanmadan danışırdı. Valeh nə desə də hazırcavablıq göstərirdi.

- Pulun yoxdu, pay götür. Götür, siftə ver.

- İstəmirəm.

- Götür, götür. Siftə ver.

Siqaretə axrıncı qullabı da vurub kötüyü çinarın dibinə tulladı, getmək istəyirdi ki, alverçi özünü yana verib qabağını kəsdi.

- Götür, peşman olmazsan. Bir siftə ver.

Alverçinin əlində tutduğu bıçağın ucu düz onun qarnına dirənmişdi. Kişinin bundan xəbəri yox idi.

Kənardan elə görünürdü ki, sanki bıçağı Valehin qarnına soxmaq istəyir. Kişi inad edib təkrarlayırdı.

- Götür, götür. Heç olmaya siftə ver.

Daha dözə bilmirdi. Kişinin səsi beyninə validatorun ciyiltisindən betər işləyirdi. Tərslikdən pul qabı şkafın gözündə qalmışdı. Cibində isə kişiyə verib başından eləməyə xırdası yox idi.

- Al də, al, niyə almırsan, al apar evə.

Kişini əlilə özündən itələmək istəyirdi ki, o, bıçaqlardan birini paraşüt kimi Valehin ovcuna qondurdu. Alverçinin həyasızlığı onu lap təngə gətirdi. İşləri tökülüb qalmışdı. Heç olmaya bir azcıq iş gərginliyindən qurtulmaq, səhər erkəndən, bir də axşam qürub edəndə gördüyü günəşin parlaqlığından, işığından, təravətdindən zövq almaq üçün bayıra çıxmışdı. Onu da bu həyasız alverçi məhv etdi. İşinə dönüb metro qatarı kimi dayanmadan çalışaraq bayırda ötən günəşli, gözəl bir günü hiss etmədən başa vuracaqdı.

- Siftə ver.

Valeh bıçağın dəstəyini hirslə sıxdı. Gərginlikdən qolu ağrıdı. Axı alverçi niyə dürtdü bıçağı ovcuna, nə cür geri qaytarsın? Azı beş dəqiqə də mübahisəyə gedəcək; götür bıçağını... lazım deyil... siftə ver...

Bıçağı ağzını geri çevirib kişiyə uzatdı, düz göbəyinin üstünə sapladı.

- Al, bu da siftə.

Alverçinin ağ köynəyi bıçağın girdiyi yerdə qırmızı haləyə büründü. Azca qabağa əyilərək səndələdi. Əlində tutduğu əşyaları daha bərk sıxdı, əlinin, üzünün əzələləri gərildi. Çinarın gövdəsinə doğru əyilmək istəyəndə Valeh onun kürəyindən yapışıb ağaca söykənməyinə kömək elədi.

Kişi ağır-ağır yerə çökdü. Əlindəkiləri buraxıb qarnını qucaqladı. Peşmanlıq dolu gözlərlə altdan yuxarı ona baxırdı. Valeh tələşla bir sağa, bir sola baxdı, gələn-gedən yox idi. Dayanacaqda işləyən kişi xeyli aralıda maşının çıxmasına kömək edirdi. Görən yoxkən içəri keçməyin zamanı idi. Təhlükəsizlik kameraları onsuz buranı çəkə bilmirdi.

Əcəb oldu bu əclafa. Axı niyə onun fasiləsini pozurdu? Axırıncı dəfə kişinin üzünə baxdı.

Alverçi güclə xırıldadı:

- Əlin nə yaman ağırmış!

Nişanı validatora yaxınlaşdırıb saata baxdı. Bu dəfə fasilə çox uzun çəkmişdi- beş dəqiqə.

**2012**

## PULAN

Gürşad yelkəni taqqıldatmağa başlayanda Qəzənfər çölə çıxıb qaralan buludlara baxdı. Göyüzünü sanki palçıqla suvamışdılar, qapqaranlıq idi. Elə yaxşı oldu, yağış da yağdı. Suyun içində itib-batmağımızı gözləri ilə görərlər.

Yağış doğurdan da qəfildən yağmağa başladı. Səhərki havaya baxanda deməzdin bu gün yağış yağacaq. Çadırın üstünə düşən iri yağış damlaları gur səs çıxardır, yelkənin qatlaqlarından süzülərək həyətə tökülürdü. Səsdən çadırda oturmaq olmurdu.

Çadırdan dammırdı. Qəzənfər həyətin bir tərəfinə düzdüyü mebellər, evin müxəlləfatı üçün azacıq narahat olsa da, onların üstünü, yanını yaxşı basdırmışdı.

Mebelləri gündən yanıb bozarmamaları üçün yelkənləyəndə şuppur-şuppur tər tökmüşdü.

Mebelləri, evin müxəlləfatını arvadının təkidi ilə basdırmışdı. Ona qalsaydı bunların üstünü örtməzdi. Qoy elə həyət-bacadaca dağınıq vəziyyətdə qalsınlar. Bu mənzərə komissiyanı bir qədər yumşaldar. Təzə mebel də verərlər. Qəzənfərgil də təzə mebeli satıb pulunu cibinə qoyar, yenə də köhnə mebeli işlədərlər.

Onun planı bu cür olsa da binayi-qədimdən həmişə ona qarşı olmuş arvadı bu dəfə də onu yolundan döndərməyə çalışmışdı. Birinci daşı uçurmağa başlayanda əlinin üstünə nəhs gətirmişdi. Qəzənfər sökdükcə dağıntının səslərinə qarğış nəvası da qarışırdı. Arvadının qarğışlarının nəticəsi idi ki, əvvəl əli lomun altında qaldı, dırnağını göyərtdi. Növbəti dəfə barının üstündən yıxılıb belini sıyırdı. Bir dəfə isə tavanın tiri az qala aşıb başını yaracaqdı. Xoşbəxtlikdən Qəzənfər cəld tərpənib kənara atıla bildi. Sağ ayağı yerdəki daşın qulağına sürtülüb sıyrıldı.

Onda daha səbrinə hakim ola bilməyən Qəzənfər divardan söküb çıxartdığı taxtalardan birini götürdü, həyətdə paltar sərən arvadın üstünə cumdu.

Səhəri gün arvadı yeriyə bilməyəndə o özü də elə bilmişdi ki, arvadı yanının göyənəyinə görə qıc olub. Hirsi soyuyan Qəzənfər birtəhər arvadın qılığına girib uzun boz yubkasını yuxarı qaldırtdıranda yanındakı göyərtilərdən başqa ağzı çəhrayılaşmış yara da görmüşdü. Heç nə olmamış kimi yubkanı aşağı çəkərək onu da inandırmışdısa da, bir azdan arvadı ağrını unudub ev işlərilə məşğul olanda dünən onu döydüyü taxtanı tapıb üstündəki yüzlük paslı mıxı öz gözlərilə görmüşdü.

Axşamçağı arvadının kefi pozuldu, çadırda qoyulmuş yeganə çarpayıya yayxanıb böyrü üstə qaldı. Qızdırması qalxmış, yeriməyə halı qalmamışdı. Məktəbli qızı Sənəmin piletkanın üzərində qızartdığı kartofun şirin qoxusu çadırı başına götürmüşdü. Günortadan işləyib acmış Qəzənfər həkim dalısıyca kəndə qaçmamışdan qabaq əlini tavaya atıb alaçiy kartof dilimlərindən bir çimdik götürüb ağzına apardı. Sonra da qaloşunu geyinə-geyinə kətilin üstündəki selofan paketdəki çörəyin qırağından bir tikə qopardı. Həkim dalınca yollanmağı qonşu arvadın israrı ilə olmuşdu. O, yaraya baxıb təcili həkimə göstərmək lazım olduğunu söyləmişdi.

Qəzənfər arvadının xəstələnib yatağa düşməsinə üzülsə də, o qədər də pərişan deyildi. Komissiya arvadını yataqda görüb yumşalar. Başqa vaxt olsaydı, arvadının yataqdan tez durmasını istəyərdi. İndi komissiya gələnəcən arvadının yataqda qalması məqsədəuyğun idi. Arvadının da canı möhkəm idi, elə həmin günün səhəri yataqdan qalxdı. O gün komissiya da gəlmədi.

Qəzənfər həmin gün həyətin ortasında qapıyla uçuq evin arasına bir stul qoyub gah uçulan evə, gah da qapıya tamaşa elədi, gələn olmadı. Səhəri gün Qəzənfər stulun

əynəmini evə sarı bir az da artırdı. İndi alaqapıya baxmaq üçün başını azca döndərmək kifayət idi.

Kürsülü, birmərtəbə evin barısı yarıyacan sökülmüş, aynabəndin və otaqların pəncərələrinin bir qismi aşmış, bir qismi də yıxılmaqdan özünü saxlamağa çalışan adam kimi divarlardan sallanıb qalmışdı. Giriş qapısının çərçivəsi yalnızca bir divardan asılı qalmışdı. Qalanları isə sökülmüşdü. Qapı yarıaçıq idi. Elə bil bu evdə dünənə kimi adam yaşamamışdı. Çatının hissələri pərakəndə şəkildə evin fərşinə tökülmüşdü. Şifer qırıqları bayram kağızları kimi bütün həyətə yayılmışdı.

Qəzənfər evi xüsusi amansızlıqla dağıtdı. Birinci damdan başladı. Dama çıxıb gürzlə şiferi, taxta dirəkləri vurub sındırdı. Çatı çökəndən sonra divarlara keçdi. Onu bu çılğın hərəkətindən döndərməyə gücü çatmayan arvadı kənarda durub qarğış yağdıranda qızları həvəslə ona kömək edirdilər. Qızlar əllərindəki uzun taxta parçaları ilə evin şüşələrini sındırırdılar. Elə şövqlə dağıdırdılar ki, sanki düşmən evi yağmalayırdılar.

Evin içində mebellərdən heç nə saxlamamışdı. Əski bir komod, mətbəx stolu, bir də ayaqları qırılmış köhnə dəmir çarpayı. O, anbardan bəzi şeylər də tapıb gətirmişdi; artıq çoxdandı geyinilməyən nimdaş paltarlar, atasından qalma stolüstü lampa, rəhmətliyin o vaxt abunə olduğu “Azərbaycan”, “Elm və həyat” jurnalları-bunların hamısını uşaq oyuncaqları ilə birgə evin yerinə səpələmişdi. Arvadının qoymaqışıqırığına baxmayaraq bir neçə boşqab, kasa götürüb döşəməyə tullamışdı. Xarab olmuş, anbara tulladıqları, istifadəsiz köhnə televizoru isə gətirib evin bir güncünə qoymuş, sonra da çəkiclə ekranını sındırmışdı.

Qəzənfər iki ay əvvələcən Bakıda fəhlə işləyirdi. Bu vaxta kimi əlini ağdan-qaraya vurmamış bir adama ailəsini dolandırmaq üçün birdən-birə ağır işlər görmək çox çətin gəlmişdi. Qəzənfər əqli cəhətdən qüsurlu idi. Atası o doğulanda qurban kəsib yeddi qapıya paylamışdı. Heç yeddi ay keçməmiş məlum olmuşdu ki, uşaq xəstədi. Bunu özünə dərd edən atası ölən günə qədər oğluna bir iş gördürməyə qıymamışdı.

Evlənmək yaşı çatanda ata-anası qohum əqrabaya hay salıb bir qız tapmış, gədəni evləndirmişdilər. Evlənəndən sonra da Qəzənfər hardasa daimi işləməmişdi. Atası yenə də əlini onun ailəsinin üzərindən əskik etmirdi. Ağır yüklü ailəni dolandırır, nəvələrinin bütün xərclərini özü çəkirdi. Qəzənfərsə bekar qalan adam olmasa da, hansı işə girişirdisə batırırdı. Onunki gətirmirdi.

Ailə saxlamağın çətinliyini Qəzənfər atası öləndən sonra hiss elədi. Uşaqlar artıq böyümüşdülər. Daha Qəzənfərin yükünü çəkəcək biri yox idi, bacılarının arada elədikləri yardım isə heç yarım aya da çatmırdı. Onda Qəzənfər Bakıdakı qohumlarının köməyi ilə fəhlə işi tapdı. İki ay əvvəlsə prorabla dalaşıb işdən ayrıldı. Başqa yerlədə onu işə götürən olmayanda isə kəndə qayıtdı. Onun gəlişindən bir ay sonra kəndi sel apardı.

Selin qabağını almaq üçün bəndvurma işlərində torpaqla doldurulan hər kisəyə görə 20 qəpik verildiyini eşidəndə Qəzənfər evdə dayanmadı. Atasından qalma yekəağız lopatkasını da çiyninə alıb evdən yüzcə metr aralıda aparılan bəndvurma işlərinə köməyə getdi.

Sel kəndin Kürə yaxın hissəsindən yüzə qədər evi vurub sıradan çıxarmışdı. Evlərin çoxu uçulub dağılmışdı. Qəzənfərgilin məhəlləsi nisbətən hündürdə yerləşdiyindən onların evlərini, həyət-bacalarını sel basmamışdı. Evləri uçmuş kəndlilər üçün hökümətin təzə evlər tikəcəyini, ya da kompensasiya ödəyəcəyini eşidəndə Qəzənfər xeyli məyus olmuşdu və onda ağlına bir fikir gəlmişdi.

Qəzənfər bir-iki gün kisə dolduranlarla işləyəndən sonra rəhbər işçilərdən birinin xoşuna gəldi. O da Qəzənfəri özünə köməkçi götürdü. Bundan sonra Qəzənfər altı qaz balasının ağzı kimi sarı botılarını çıxarıb qaloş geyindi ki, iş dalınca ora-bura qaçmaq rahat olsun.

O, qulluğa gedir, siqaret alır, kontur dalınca qaçır, araq tapır, bir sözlə bütün işlərin öhdəsindən gəlirdi. Rəhbər işçi də ona laqeyd qalmır, arada görüm-baxım edirdi. Bir gün səhər Qəzənfər işə gələndə gördü ki, Bakıdan gəlmiş rəhbər işçi geri qayıdıb. Bundan sonra Qəzənfər daha sel bölgəsinə getmədi.

***

Yarım saatdan sonra yağış kəsdi. Göyün üzü açılmağa başladı. Babat yağış yağmışdı. Yağan yağışı torpaq süngər kimi canına çəkmişdi. Həyətdəki gölməçələr qurumaq üzrəydilər. Uçuq evin içində xeyli su yığılıb qalmışdı. Yağış dağılmış evi daha miskin hala salmışdı.

Komissiya üzvləri qapını taqqıldadıb həyətə girəndə Qəzənfər dağıntının içində var-gəl edir, xoşuna gəlməyən yerləri yenidən vurub-dağıdır, evin ortasını zibillə doldurur, köhnə pal-paltarı evin içində əmələ gəlmiş gölməçədə isladıb sonra palçığa bulayaraq ortaya atırdı. Komissiya üzvləri çox qalmadılar. Evin ətrafında bir dövrə vurdular. Qəhvə rəngli forma geyinmiş komissiya üzvü evin içinə girib çıxandan sonra yanındakılara nəsə dedi. Hamısı gülüşdülər. Onların gülüşməsi Qəzənfəri pərt etsə də, bunu büruzə etmədi.

Qəzənfərin evini qeydiyyata almadılar. Nə qədər and-aman eləsə də xeyri olmadı. Üzvlər qapıdan çıxanda yazıq görkəmli Qəzənfər onların ardınca küçəyə qaçıb maşına cumanda bayaqdan çadırın ağzında qızlarla dayanıb gələnlərə tamaşa edən arvadı əllərini qoynundan götürüb ərinin dalınca kül qoydu.

Maşın torpaq yolda kövrək izlər sala-sala uzaqlaşandan sonra Qəzənfər həyətə girməyə ürək eləmədi. Girən kimi arvadı qışqırbağır salıb üstünə cumacaq, vay-

şivən qoparacaq. Əvvəl siqaret yandırıb qapının ağzında bir qədər çömbəldi, sonra da ayağa qalxıb məndə sarı geti.

Axşam kəndə xəbər yayıldı: Kimsə bəndi uçurmaq istəyib. Bəndi qoruyan polislər onu tutub şöbəyə aparmasaymışlar, kəndi yenidən su basacaqmış.

**2011**

## ELEKTRON POÇT SİFARİŞİ

Poçtun bəyaz plastik qapısı möhkəmcə açıldı və örtüldü. İçəri girən adam palçıqlı çəkmələrini kandarda qoyulmuş şəlpəyə silib piştaxtaya yaxınlaşdı. "Tayota Prado"nun açarlarını tutduğu əlilə kəhrəba rəngli piştaxtanı döyəclədikdən sonra başını qaldırıb ətrafa göz gəzdirdi. Divardan asılmış poçt işi, rabitəyə aid lövhələrə etinasız baxdı. Lövhələrdə yazılanlardan bir şey anlamadığı donuq çöhrəsindən bəlliiydi. O, ikinci dəfə piştaxtanı döyəclədikdə içəri qapıdan poçt işçisi Çapayın başı göründü. O, aş yediyi dodaqlarını əlinin içi ilə silib piştaxtaya yaxınlaşdı. Ədəb-ərkanla hörmətli qonağa salam verib yumşaq kreslosunda əyləşdi.

Gələn Boranlı idi. Astanlı kəndinin sayılıb-seçilən adamlarından biri. Sözsüz ki, bu varlı-hallı adamı nəinki doğma Astanlıda, rayonun ən ucqar kəndlərində belə tanımayan yox idi. Astanlının və qonşu kəndlərin çöllərində onun beş yüz hektardan çox torpağı, min baş qoyundan ibarət sürüsü, 30 baş inəklik ferması, rayonda beş mağazası, bir avtoyuma məntəqəsi, üç kafesi vardı. Boranlının Bakı və rayon mərkəzindəki iki mənzilindən başqa kəndin qırağında yerləşməsinə baxmayaraq öz əzəməti, böyüklüyü ilə bu tərəflərdə tayı-bərabəri olmayan mülkü var idi. Mülkü ata-baba yurdunda yerləşirdi. Əvvəllər isə yurdda onun özünün də böyüyüb boya-başa çatdığı, Böyük Vətən Müharibəsi bitəndən beş il sonra tikilmiş, külək şimaldan əsəndə cənuba, cənubdan əsəndə şimala əyilən bir mərtəbə, samanlı möhrədən hörülmə evləri var idi.

Bu birmərtəbə, samanlı möhrədən tikilmə evdə yaşadığı vaxtlarda heç kəs onu Boranlı çağırmırdı. Onda kənddə hamı onu Çingiz kimi tanıyırdı. Hər şey o əsgərlikdən qayıdandan sonra oldu.

Təxris olandan sonra bir müddət o da tay-tuşları kimi işsiz dolandı. Kənddə yeganə iş yeri kənd məktəbində müəllimlik idi, onunsa heç düzəmməli orta savadı yoxdu. Universiteti bitirənlər isə Astanlı məktəbində vakant yer olan kimi işə götürüləcəkləri ümidi ilə avara-avara dolanırdılar.

Kənddə bir müddət avaralanandan sonra Çingiz atasının Bakıda yaşayan əmisi oğlunun çağırışı ilə paytaxta fəhlə işləməyə gedir.

Bir ay sonra isə axşamüstü arxa hissəsi kəsilib yük yeri düzəldilmiş, rənginin nə vaxtsa yaşıl olması üstündəki bir-iki əl boyda yaşıl boyadan hiss edilən uçub-tökülmüş köhnə-külə "Qaz-21"-də döndü. Çingizə xeyli gülüb ələ salan işsiz taş-tuşları səhər onu da, "Qaz-21"-i də kənddə tapmayanda xətrinə dəydiklərini düşünüb məyus oldular. Onunla birlikdə kənddə İkinci Dünya Müharibəsi qurbanlarının xatirəsinə tikilmiş abidənin ətrafındakı dəmir sürahilər də yoxa çıxdı.

Bir həftə sonra Çingiz yenə kənddə peyda oldu. Bu dəfə o gedəndən sonra kolxoz həyətindəki yararsız dəmir-dümür və bir də kəndə gələn istifadəsiz su borusunun bir hissəsi yox oldu. Növbəti dəfə su borusunun qalan hissəsini və kolxoz bağçasının həyətindəki dəmir yelləncəkləri, sürütcəkləri doğrayıb apardı.

Bir gün axşama yaxın onların həyətinin qabağını "Kamaz" bağırtısı bürüdü. Çingiz kəndə metal aparamağa "Kamaz"la gəlmişdi. Bir müddət qapılarından "Kamaz" səsi əksik olmadı. Bir dəfə isə qapılarında "Kamaz"la birlikdə Çingizin "07"-si də göründü. O daha paslı-tozlu iş paltarında dəmir tulantıları toplamır, "07"-si ilə lazımı idarələrə gedib söküb daşıyacağı dəmir –dümirin "icazəsi"ni alır, ardınca da fəhlə tutduğu tay-tuşları metal tullantılarını yük maşınlarına yükləyirdilər.

Astanlıda, qonşu kəndlərdə dəmir adda gözə dəyən nə varsa azaldıqca onun şan-şöhrəti, var-dövləti də artırdı. Beləcə bir neçə il keçdi. Bir gün kənddə daşımağa dəmir qalmayanda Çingiz kefini pozmadı. O, artıq kəndin əkin sahələrində bir xeyli torpaq sahəsi almış, müflis olmuş bir mağazanı özününkiləşdirmişdi.

Bir dəfə kənddə icra nümayəndəliyinin keçirtdiyi tədbirdə kənd sovetliyinin işçisi ona Çingiz müəllim yox, familiyası ilə Boranlı deyə müraciət elədi. Vahimə oyandıran familiyası ilə çağırılması onun özünə də xoş gəldi, iclasın fəxri qonaqlar üçün ayrılmış kürsüsündə əyləşmiş Çingiz xımı-xımı gülümsədi. Bundan belə kənndə hamı onu Boranlı çağırmağa başladı.

Çingiz kənddə Boranlı çağırılmağa başlayandan sonra xasiyyəti də dəyişdi. Adının mənası olan bu təbiət hadisəsinin xüsusiyyətləri onun xasiyyətinə, davranışlarına təsir etdi. Yekəxana, özündənrazı adam kimi tanınsa da hamı ona hörmət edir, xətrini əziz saxlayırdı. Bəs necə, kənddə iş yeri adda hansı müəssisəni desəydin, onun barmağı vardı. Onlarla adam onun torpaqlarını əkir, heyvanlarını otarır,

mağazalarında işləyir, kafesində ofisiantlıq edirdi. Ümumiyyətlə onun xasiyəti idi. Kənddə hansı yeni iş yeri açılırdısa Boranlı ordaydı. İndi də köhnə kolxozun inzibati binasının arxasındakı boş torpaqda kərpic sexi açmaq istəyirdi. Hətta Rusiyadakı dostunun vasitəsilə müxtəlif avadanlıqlar, cihazlar istehsal edən müəssisələrin biri ilə telefonla danışmış, onlar isə öz kataloqlarını göndərmək üçün ondan elektron poçtunu istəmişdilər. O, telefonda bir saniyəlik duruxub qalmış, heç nə başa düşməmişdi. Amma rus iş adamlarının qarşısında savadsız kimi görünmək istəmədiyindən səhər təkrar zəng vurub onlara elektron poçtunu verəcəyini vəd etmişdi.

Telefon söhbəti bu gün səhər olmuşdu. O, günortaya qədər bir xeyli fikirləşmiş, mədaxil-məxaricini hesablamış, nəhayət günorta vaxtı işdən ötrü təcili Bakıya gedərkən saxlancından iki min dollar götürüb yolunu kənd poçt şöbəsindən salmışdı.

Boranlı əlini cibinə aparıb bir dəstə pul çıxarıb piştaxtaya qoydu və dönə-dönə Çapaydan xahiş elədi ki, bu elektron poçt məsələsini onun üçün tez bir zamanda həll eləsin. Ardınca da tələsdiyini, sabah gələndə qalanını da ödəcəyini söyləyib çıxıb getdi.

Boranlı poçtdan çıxan kimi Çapay pulları cəld piştaxtanın üstündən yığışdırıb əvvəlcə siyirməyə, sonra siyirmədən götürüb cibinə qoydu. Özünü itirdiyindən nahar yeməyini yarıda bıraxdığını da unutmuşdu. İçəri otağa keçib şax yüzlük banknotları saymağa başladı. Otuzu adlamış Çapay heç vaxt iki min dolları bir arada görməmişdi. Onun üçün iki min dolları əlində tutmaq möcüzə idi. Əlində tutduğu əskinazları saydıqca kədərləndi. Özünü və orta məktəbi güclə bitirmiş Boranlını tərəziyə qoyub on bir illik məktəb, dörd illik universitet təhsilinə sərf etdiyi zamana heyifi gəldi. Az qala iki olar ki, nişanlı idi. Amma qızıl almağa pulu olmadığından hələ də evlənə bilməmişdi. Hər ay poçtdan aldığı 98 manatla isə siqaret xərclərini güclə ödəyirdi. Bu pul onun üçün göydəndüşmə sayılırdı. İki min dollarla (Boranlı üstünü düzəldəcəyini də vəd etmişdi) nişanlısının qır-qızılını alar, yüz-iki yüz də xərcliyi qalardı.

Çapay, əlbəttə elektron poçtun Azərpoçtun hər kənddə tikdirdiyi xudmani poçt şöbələri kimi bir şey olduğunu düşünən Boranlının pulunun dalına keçə, lap bir şey uydurub bir-iki həftə Boranlını fırlada da bilərdi. Amma gec-tez Boranlı elektron poçtun nə olduğunu, onun düzəldilməsinin iki min yox, heç iki dollar xərc aparmadığını biləcəkdi. Bax o zaman Çapay üçün pis olacaqdı. Boranlı isə öz acığını necə desən çıxardı; onu döyməkdən tutmuş, işindən qovdurmağa qədər.

Çapay bir də ayıldı ki, pulu dəfələrlə saymaqdan baş və şəhadət barmaqlarının ucu qapqara qaralıb. Görməmişliyindən xəcalət çəkib pulları cibinə qoydu. Otaqdan çıxdı.

Boranlı palçıqlı çəkmələrini kandarda qoyulmuş şəlpəyə silib piştaxtaya yaxınlaşdı. Çapay kreslodan qalxıb onunla salamlaşdı, elektron poçtun artıq hazır olduğunu söyləyib, kompüterdə, loqini, pəsvordu daxil etməyin, onunla işləməyin qaydalarını öyrətdi. Sonra da cibindən Boranlının dünən verdiyi pulları çıxartdı, elektron poçtun düzəldilməsinə Boranlının düşündüyü qədər yox, cəmi yüz dollar sərf elədiyini söyləyib qalanını qaytardı. Bu çətin işin belə az məbləğə başa gəlməsinə sevinən Boranlı dəstin üstündən 100 dollar götürüb Çapaya uzatdı, təşəkkür eləyib getdi.

Çapay potrmanatını açıb yüzlüyü ehmalca dünəndən orda müvəqqəti məskunlaşmış o biri yüzlüyün yanına qoyub kresloya yayxandı. Toyun pulunun iki yüzü artıq düzəlmişdi.

## ALMAN MALI

Qərib kişi qızını televizorda görəndə təzə əl-ayaq eləyib evə qalxmışdı. Beş ay əvvəl Kənd Təsərrüfatı Nazirliyindən fərdi təsərrüfatın inkişafına ayrılan kreditlə Almaniyadan gətirilmiş üç baş cins inək almışdı. Qərib kişi köhnənin heyvandarı olsa da inəklərdən ikisi yerli şəraitə uyğunlaşa bilməyib tələf olmuşdu. İndi əlində cəmi bircə inək qalırdı, onun da üstündə yarpaq kimi əsirdi. Bu inək də ölsə, ona iki il müddətinə quruca kredit ödəmək qalacaqdı. Elə ona görə də heyvanları farağatlayandan sonra cins inəklə xeyli məşğul olmuş, indicə evə qalxa bilmişdi.

Arvad qabağına pürrəngi çay qoyub oturmuşdu televizorun qənşərində, “Səni axtarıram”a baxırdılar. Qərib kişi nə qədər iş-güc adamı olsa da, verilişdən də vaz keçə bilmirdi. Arvadla diz-dizə oturub maraqla baxır, yeri gələndə arvada qoşulub qəhərlənir, yeri gələndə hönkürüb ağlayırdı.

Elə bu vaxt efirdə 30 yaşlarında bir qız göründü. Hündürboy, sarı saçlı, mavi gözlü, bir az qarabuğdayı qız idi. O almanca danışır, tərcüməçi çevirirdi: “Atam sovet vaxtı Almaniya Demokratik Respublikasında qulluq edən əsgərlərdən olub. Anamla tanış olublar, bir-birlərini seviblər. Atamın tərxis olmağına az qalmış mən doğulmuşam. Anam atamdan soruşub ki, qıza nə ad qoyaq, atam da “qızım burnundan anama oxşayır, anamdı o mənim, qızımın adını da Anna qoyuram” deyib. Anam bir dəfə məni atama da göstərib. Anam təklif edib ki, getmə, qal

burda, evlənək, yaşayaq. Atam da söz verib ki, evdəkilər nigarandılar, gedim evlə görüşüm, mütləq qayıdacam. Amma qayıtmayıb. Atamdan mənə qalan yeganə yadigar bu şəkildir...”

Arvadı ağzını açıb elə zarafata, “kişi, birdən qızın atası sən olarsan a” demək istəyirdi ki, qəfildən ekranda hündür taburetdə oturub ayağının birini o birinin üstünə aşırmış, xrom çəkməli, xaki rəngli formada qapqara bığlı bir əsgər fotosu göründü.

Qərib kişi şəkildəki əsgərin özü olduğunu anlayanda arvadın səsi evi başına götürmüşdü. O, bir neçə dəfə əllərini sinəsinə çırpandan sonra huşunu itirdi. Qız-gəlin naşatır, soyuq su gətirib arvadı ayıltdılar. Aynabəndin dibində sərili qalmış arvad yavaş-yavaş özünə gəlir, qızlar onu sakitləşdirməyə çalışırdılar. Qərib kişi nə qədər and-aman eləyib alman qızın “cavanlıq səhvi” olduğunu izah eləməyə çalışsa da arvadı dil-boğaza qoymur, elə hey deyirdi ki, niyə bu vaxta kimi mənə deməmisən? Hay salıb saçın yolurdu: “İndi sən də çıxassan televizora, bütün kənddə biabır olacayıq. Yenə heç kim bilməsəydi dərd yarı idi. İndi bütün ölkə biləcək bu biabırçılığı.”

Qərib kişi də arvadını inandırmağa çalışırdı; bu vaxta kimi qızını görməyib ölməyib ki... Eybi yox, bundan belə də görməz. Qızı da kor-peşman çıxar gedər vətəninə.

Arvadsa heç toxtamırdı: “Yox nə olsun, sən özünü göstərməyəssən, Xoşqədəm aləmin tülküsüdü, qurddu, gəlib tapacaq səni. Burdan Əfqanıstana vurub gedən adam üçün Bakının burnunun ucunda Qəribi tapmağa nə var? Arxayın ol, sabah qapıdadı Xoşqədəm. A gəlin, sabah tezdən əhəngə bir az lil qat rəngləyək həyət-bacanı. Onsuz Xoşqədəm gəlməsə də sabaha çıxan deyiləm, yasıma gələnlərdən ayıb olmasın”.

Siqareti siqaretə calayan Qərib kişi də özündə deyildi. İşlərinin gərgin vaxtında bir yandan da bu qız məsələsinin ortaya çıxmasına bikef olsa da, gözünü ekrandan çəkə bilmirdi. Qundaqda qoyub gəldiyi qızına həsrətlə baxır, onun simasında cavanlıq elədiyi alman gözəlinin simasını görür, bir anlıq qayğısız, şən, işıqlı keçmişə qayıdırdı.

Anna indi özündən danışır, lap körpəlikdən Şərq dünyasına maraq duyduğunu, hind fəlsəfəsini sevdiyini, hinduist olduğunu, dəfələrlə Hindistan, Çin, Tayvan, Vyetnam kimi Şərq ölkələrini gəzsə də Azərbaycana birinci dəfə gəldiyini və bu ölkəni belə təsəvvür etmədiyini, tipik bir Şərq şəhəri sandığını deyirdi.

Qız-gəlin bu məsələyə görə lap sevincək olmuşdu. Arvadı inandırmağa çalışırdılar ki, çox şişirtmək lazım deyil, guya özü demirdimi, ay kişi, kaş sənin də Rusyətdən-zaddan varlı bir oğul-qızın çıxardı ortaya, biz də hazıranazır olardıq. Bax, bu da allahın payı, çıxıb qabağına, daha niyə özünü məhv edirsən? Camaat ütür efirə

çıxmaqdan ötrü. Çıxarıq efirə, bacımızı qucaqlayıb bağrımıza basarıq, sən də "qızım" deyib sarılarsan bu alman balasına. Bizi çəkərlər. Hamımız olarıq məşhur. Bütün kənd, yeri gələndə rayon da bizə həsəd aparar. Camaat nəzir verir ki, Xoşqədəm onların qapısını açsın, sən də naşükürlük edirsən.

Onların sözündən Qərib kişi də toxtaqlıq tapırdı. O da fürsət bilib tezcə söhbətə qoşuldu. Arvadını inandırmağa çalışdı ki, onsuz Almaniyadan aldıqları bu sonuncu malın da halı xarabdı, bu gün-sabahlıqdı. Bəlkə özünü qıza göstərəndən sonra isinişərlər. Qərib də gedər Almaniyaya qızının yanına. Qız da görünür varlı-hallıdı ki, bu qədər ölkə gəzib. Gedər orda bu alman mallarının saxlanma şəraitini öyrənər, qayıdanda da qızı atası üçün beş-on dənə alman malından alıb yola salar atasını. Gələndən sonra da həm dövlətin faizini verər, həm də dolanarlar. Qabaqda qızın toyu gəlir, bu mal da ölsə nə edərlər, ümidləri bu mallara idi, südünü satıb dolanasıydırlar.

Nəhayət qız-gəlin bir yandan, Qərib kişi o biri yandan arvadı razı sala bildilər. Qərib kişi telefonu götürüb verilişin əlaqə nömrəsini yığdı. Evi həyəcan, gərginlik bürüdü. Hamı nəfəsini kəsib diqqətlə telefondan gələn səsləri dinləməyə çalışırdı. Qərib kişi Almaniyadan gələn qızın atası olduğunu deyəndən sonra verilişin prodüserləri sabah mütləq onunla əlaqə saxlayacaqlarını bildirdilər. Bundan sonra evə çaxnaşma düşdü; hərə öz fikrini deyir, ata ilə balanın möhtəşəm görüşü barədə müxtəlif fərziyyələr uydurur, qızlar isə yeni bacını o ki var tərifləyir, onunla Qərib kişi arasında bənzərliklər axtarmağa çalışırdılar. Qızı deyirdi: "Burnu kopya atamdı". Gəlin deyirdi: "Gözləri ataya oxşayır, yumrudu".

Qərib kişi də həvəsə düşüb yerli-yataqlı Annanın anası ilə tanış olmağından danışır, qız-gəlin də maraqla qulaq asırdı. Təkcə arvadı özünü o yerə qoymur, eşitməməzliyə vurur, başı söz-söhbətə qarışmış gəlinin uşaqlarına baxır, özünü elə göstərirdi ki, guya ərinin danışıqları ona maraqlı deyil. Ürəyində isə sabah bazara kimin gedəcəyini, kimin həyət-bacanı əhəngləyəcəyini, nələrin alınacağını planlaşdırırdı.

Arvad televiziyanın gəlişinə qiyabi olaraq bütün hazırlıqları görmüşdü. Səhər prodüserlər zəng edib bir qədər sorğu-sualdan sonra dedilər ki, bu hadisə o qədər də ciddi hay-küyə səbəb olmayıb. Buna görə də kəndə çəkilişə gəlməyəcəklər. Qərib kişi təyin olunmuş vaxtda studiyaya gəlib qızı ilə görüşər, vəssəlam.

Açığı prodüserlərin bu hərəkətlərinə məyus olsalar da arvad Xoşqədəmin dalısıyca qarğış töküb təkid elədi ki, Qərib kişi inadından dönməsin. Bakıya gedəndə şəxsən onunla danışıb bildirsin ki, hazırlıqlar görülüb; bütün kənd yığışacaq, qapıda qızının ayağının altında qurban kəsəcək, şadyanalıq olacaq, böyük məclis qurulacaq. Lazım gəlsə, lap rayondan musiqiçilər də çağırar. Yəqin bundan sonra Xoşqədəm xanım rədd cavabı verməz.

Ona görə də ehtiyatı əldən vermədilər. Lazımı işlər görüldü, qurbanlıq qoç ayrıldı. Qərib kişi ilə Bakıya kimin getməsi məsələsi ortaya çıxanda isə arvadı razı olmadı, bildirdi ki, camaatdan ayıbdır. Ayın on beş gününü dənizdə işləyib, qalan on beş gününü də evdə olan oğlu hazırda dənizdə idi. Üstəlik gəlin iki uşaq əlindən bayır-bazara çıxmağa macal tapmırdı. Buna görə də qərara aldılar ki, Bakıya ancaq qız getsin. Bir də Qərib kişinin böyük qardaşı. Onsuz verilişdən sonra Annanı götürüb ləngimədən kəndə gələcəkdilər.

***

Maşın döngədə görünəndə kimsə həyətə yığışmış oğlanlardan birini səslədi ki, tez damdan qurbanlıq qoçu gətirsin. Qərib kişinin kiçik qardaşı isə bülövlənib qəzet parçasına bükülmüş bıçağı götürüb hazır dayandı. Tələsməyə gərək yoxdu, işlər qaydasında gedirdi. Maşın şəhərdən çıxandan kəndə çatana kimi dəfələrlə Qərib kişiyə zəng olunmuşdu; necədilər, Xoşqədəm xanım da gəlirmi, görüş necə keçdi, qız necədi, indi hardadılar, yolda bir şey yeyiblərmi-hamısı yerli-yataqlı soruşulmuşdu.

Maşının kəndə çatmağını qabaqcadan bilirdilər deyə narahatlığa səbəb yox idi. Hər şey hazırdı; salatlar hazırlanmışdı, ocaq çatılmışdı, qazanlar asılmışdı, plov dəmlənmişdi. Bircə qalırdı qurbanlıq qoçun ayaqlarını bağlayıb Qərib kişinin otuz ildən sonra tapdığı alman qızının ayaqları altında kəsmək. Qoç da artıq hazırdı, bayaqkı oğlan heyvanın dal ayağından yapışıb sürüyə-sürüyə darvazanın ağzına gətirirdi.

Maşın dayandı, cavanlardan biri tez qabağa qaçıb Qərib kişinin qapısını açdı. O biri də arxa qapını açdı. Qərib kişinin qızı maşından düşəndə alqışlar yüksəldi. Hamı heyranlıqla alman qıza baxırdı. Darvazaya yığılanların içində kimlər yoxdu. Qərib kişinin ailəsi, anası, kiçik qardaşı, qardaşı uşaqları, bacısı uşaqları, qayınları, baldızları, onların uşaqları, digər qohumlar, qonum-qonşular. Hamı Qərib kişinin alman qızının marağında idi.

Anna maşından düşən kimi arvadlar qabağına qaçıb sarıldı. Hər biri növbə ilə qızın üzünü əlləri arasına alaraq yanaqlarından dəfələrlə öpdülər. Qəfil öpüş yağışından çiyrinəntəhər olmuş Anna çaşbaş qalmışdı. Qərib kişi Annann özünü itirdiyini anlayıbmış kimi tez qadınları uzaqlaşdıraraq qızının çiynindən yapışıb özünə çəkdi. Birlikdə qabağa yeridilər.

Ata-bala yerə sərilmiş qoçun qabağında dayandı. Qərib kişinin kiçik qardaşı “Bismillah” deyib bıçağı qoçun boynuna çəkəndə qızın sifəti dəyişdi. Bayaqdan gülər üzlə tanımadığı insanlara baxan, qohumlarını müəyyənləşdirməyə çalışan Annanın sifəti bozardı. Heç nə başa düşmürdü. Boğazına bıçaq dəyib əvvəl əti ağaran, sonra kəsiyindən qanı fışqırdıqca bədənini əsməcə tutan, qəssabın əlinin

altında titrəyən heyvanın bərəlmiş göyümtül qara gözlərinə baxanda Annanı da titrəmə tutdu. “Ooo mein Gott! Nein. Bitte, bitte. İch will nicht”[1] desə də heç kəs heç nə başa düşmədi, gah xırıldayan qoça, gah Qərib kişinin təzə qızına baxan camaat bir ağızdan “Allah qəbul eləsin” söyləyirdi.

Qərib kişi də Almaniyada qızının olduğu aşkara çıxan gün kimi pərt, pis iş tutan adamlar kimi “günahkar” deyildi, əksinə indi onun boy-buxunlu gözəl qızına həsədlə baxan gözləri gördükcə otuz il əvvəl elədiyi işə görə qürrələnirdi. Buna görə də elə zənn elədi ki, çiynindən tutub özünə sıxdığı qızı sevincindən belə titrəyir. Qoçun qanı tamamilə kəsiləndən sonra Qərib kişi əyilib çəçələ barmağını qoçun boğazının kəsiyinə toxundurub, isti, buğlanan al qana batırdı. Sonra dikəlib barmağını Annanın iki qaşının arasına yaxdı.

Qız yeldöyəndə əkilmiş ting kimi əsməyə başladı. O, səntirləyə-səntirləyə qoçun qənşərinə gəldi və birdən öyüyərək düz qoçun kəsilmiş boynunun üstünə qaytardı.

Camaatın xoş ovqatı qəfil dəyişdi. Bəziləri iyrənib ağzını büzdü. Kimsə dedi ki, daha bu qurbanı yemək olmaz. Qızın halının xarablaşması hər kəsi qorxuya saldı. Ən çox narahat olan isə Qərib kişi idi. Qız əlinin içində acxəmrə kimi axıb gedirdi, gözləri hədəqəsindən çıxıb yaşarmışdı, rəngi avazımışdı. Kimsə cəld stul gətirdi, başqası bir qab su üçün çənə qaçdı. Qızı stula oturtdular, hələ tanış olmağa macal tapmadığı analığı bir tərəfdən, bacısı da o biri tərəfdən əllərini ovuşdurub, üzünə sərin su çilədilər. Dəsmalı su ilə isladıb qızın üzünə, boynuna, sinəsinə çəkdilər. Qurbanlıq qoçun boynu, dərisi qusuntu ilə bulanmışdı.

Halı xarab olmuş Anna mızıltı ilə elə hey “Ich bin Vegetarierin, Ich bin Vegetarierin”[2] desə də onun dediklərini anlamırdılar. Qərib kişiyə şəhərdə tərcüməçi təklif olunanda maşında əlavə yer olmadığından, bir az da zağarlığından demişdi ki, biz qızımla bir-birimizi baxışlarımızdan da başa düşərik, bizə tərcüməçi gərək deyil. Qız almanca elə hey “mən vegeterianam, mən vegetarianam” və daha nələrsə deyirdisə də o heç nə başa düşməyib çaşqınlıq içində qalmışdı. Ona bir şey olacağından qorxurdu. Qızını otuz il görməsə də atalıq hissi dinc dayanmağa qoymurdu, üstəlik bu qısa müddətdə Annaya o qədər bağlanmışdı ki, heç deməzdin ata-qız biri-birini otuz il görmürlər.

Qarışıqlıqdan kimsə dedi ki, qız “vegeterianam” deyir. Arvad cəld üzünü tutub soruşdu ki, bu nə deməkdi. O dəqiqə yerbəyerdən cavablar gəldi, əlüstü bir neçə nəfər izah elədi ki, vegeterianlar ət yemirlər. Qərib kişi o dəqiqə kiçik qardaşının üstünə çığırdı ki, tez ortalıqdan qoçu yığışdırsın. Qanı da yuyub təmizləsinlər. Sonra qızını bağrına basıb təskinlik verməyə başladı. Qızı sakitləşdirməyə çalışaraq üz-gözündən öpdü və başını qatmaq üçün özünün almancası ilə - əslində buna almanca da demək olmazdı, iki-üç sözdən, “ya-ya”dan ibarət bir dil idi-arada

---

[1] Ooo Tanrım! Xahiş edirəm. Mən istəmirəm.
[2] Mən vegeterianam, mən vegeterianam.

bir ruscası ilə və orda olan məktəbli uşaqların ingiliscə ona kömək etməsi sayəsində qızı ilə qohumlarını tanış eləməyə başladı. Tez də araya salıb arvadına göstəriş verdi ki, süfrədən bütün ət yeməkləri yığışdırılsın, ortaya çoxlu, kartof, göy-göyərti pomidor, xiyar, pendir, yağ düzülsün.

Bir azdan təzə qohumları ilə tanış olan Annanın da kefi düzəldi. Daha Qərib kişinin "almanca"sına da ehtiyac qalmamışdı, sən demə qız ingilscə bilirmiş. Ona görə də Qəribin onuncu sinifdə oxuyan qardaşı qızını qabağa verdilər; yerə-göyə sığımırdın ki, ingilis dilini elə bilirəm, belə bilirəm, instituta girib ingilis dili müəllimi olacam, bu meydan, bu da şeytan, göstər məharətini. Qəribin dilindən tələyə düşmüş qardaşı qızı da əmiqızının yanında oturub onun suallarına cavab verir, qohum-əqrəba ilə Anna arasında körpü yaradırdı. Süfrə arxasında şən məclis gurlayırdı.

Qızın qohumları ilə xoş ünsiyyət qurduğunu görən Qərib kişi qürrələndi, əhvalı tamamilə düzəldi, toxdadı. Mətbəxə keçib orada yemək çəkən arvadına yeni tapşırıqlarını verdi və sevincək olub qapının ağzına qoyulmuş yarıboş araq kasetindən bir butulka çıxarıb mətbəxdə kömək edən qardaşı ilə özünə daş stəkanla bir araq süzdü, birnəfəsə başına çəkdi.

Yerdə çömbəlib teştdən plov çəkən arvadı deyəndə ki, indus qızından soruş gör plovu yağlı yeyir, ya yağsız, Qərib kişi sualın kinayəsini duymazlıqdan gəldi. Arvadı da ərinin cavab vermədiyini görüb əlindəki işi saxlayaraq dikəldi və ərinə təpindi: "Nə sevincək olmusan, elə bil biz ögeyik, o doğmadı, nədi, otuz ildi axtarmırdın, nə tez istəkli oldu? Bayaqdan burda deyirlər ki, bu farmazon qızın həm də indusdu. Televizorda da deyibmiş".

Qadının xəyalları məhv olmuşdu, elə bil dünənki sevincək, ərini bəzəyib televiziyaya yola salan bu deyildi, zəhər tuluğuna dönmüşdü. Qərib kişi ona deyəndə ki, qızı Almaniyadan çoxlu mal alıb göndərər, onlar malları artırıb qazancına həm krediti ödəyər, həm də qızın cehizini alıb toyun edərlər, arvadı çox sevinmişdi. Elə buna görə də Qərib kişinin qızı ilə görüşməyinə razı olmuşdu. İndi isə Annanın təsəvvüründəki adam çıxmamağına yanır, həm arzularının məhvinə, həm qohum-qonşu içində biabır olmağına, həm də bu qədər xərc-zəhmətə heyfslənirdi.

"Hind kinolarında görməmisən guya, induslarda mal müqəddəsdi. Qızın nəinki ət yemir, üstəlik malı müqəddəs bilir. Qorx ki, əlindəki malı da açıb buraxsın çölün düzünə, nə var-nə var müqəddəsdi. İsaya-misaya da inanmır bu qız, kafirdi kafir".

Qərib kişi isə qardaşı ilə ikinci yüzü də aşırandan sonra arvadını da, malı da tamamilə unutdu. Qapının çərçivəsinə söykənərək qarabaş qohumları arasında oturmuş sarısaç, su zanbağına oxşayan, hind qızları kimi alnında bayaq çəkdiyi "qırmızı xalı" qızaran qızına tamaşa edir, ona baxdıqca özünün otuz il əvvəlini, o

illərin Almaniyasını, Annanın anası ilə yaşadığı xoş günləri, sevişmələrini xatırlayırdı.

Arvadı bir də Annanın inəyə sitayiş elədiyini vurğulayanda Qərib kişi saymazyana şəkildə “arvad özün də bilirsən ki, mənim həmişə mallara böyük hörmətim olub” deyərək artıq yarılanmış butulkanı əlinə götürdü və aşa-aşa mətbəxdən çıxdı.

Qərib kişi masaya yaxınlaşıb düz qızının yanında oturdu. Butulkanı masaya qoydu, qızına sarılıb yanaqlarından öpdü, qız “Dein Schnurrbart kratzt mein Gesicht” (ata, bığın üzüm dalayır) desə də heç nə başa düşmədi. Qızıl dişlərini ağardaraq qızına gülümsədi. Evdəki kişilər də stolun Anna oturduğu tərəfində cəmləşdilər, süfrəyə ət xörəyi verilmədiyi üçün elə pomidor xiyarla, aş-qarasız plovla araqdan vurmağa başladılar.

***

Evi hay-küy, şadyanalıq bürümüşdü. Qədəhlər dolub boşalırdı. Anna da artıq süfrə başında deyildi. Ona görə də rahatca ət xörəyi gətizdirib vururdular. Qızlar Annanı dövrələyib həyəti gəzməyə çıxarmışdılar.

Qərib kişinin arvadı bir də baxdı ki, əri süfrə başında deyil. Əvvəl elə bildi, təzə qızı ilə gəzməyə gedib. Aynabənddən boylandı, həyətdə Anna ilə gəzişənlərin arasında ərini görmədi. İstədi baş qoşmasın, üstəlik ərini ürəyində yamanladı da, amma kişi içdiyinə görə ehtiyat elədi. Onun tualetdə qaytaracağından, ya da toqqaşıb yıxılacağından qorxdu.

Həyətə düşüb tualetə baxdı. Qapısı açıq idi. Yəqin tövləyə mala baxmağa gedib. Tövləyə girəndə isə dəhşətə gəldi. Qərib kişi alman inəyin başını qucaqlayıb ağlayırdı: “Anna, bağışla məni, mən o vaxt nahaq ananı atdım. Bağışla məni, qızım, bağışla. Mən sizi atmasaydım, sən atasız böyüməzdin, bizim gözəl ailəmiz olardı. Mən də bu cəhənnəmə qayıtmazdım”. Arada almanca da qırıq-qırıq sözlər deyirdi.

Qərib kişi bunları deyib inəyin qaşqasından öpdü. Arvadı yerində quruyub qaldı. Divara söykədilmiş yabanı götürüb kişini döymək istəsə də əli qalxmadı, qəhərlənmişdi, səsi çıxmırdı. Arvad dinməzcə tövlədən çıxdı. Bir bağda gəzişən qızlığına, bir də aynabənddən gələn səs-küyə baxdı. Şalını başından açıb tarazladı, yenidən başına bağladı, hirslə çənəsinin altında düyünlədi və tövlənin arxa qapısından küçəyə çıxıb qonşu kənddəki qardaşıgilə getdi.

***

Qərib kişi arvadının evdən getməyindən səhər ayılanda xəbər tutdu. Başağrısını aparmaq üçün çaydan içib siqaretdən püləyə-püləyə qızını süzürdü. Bir-birlərinin dillərini anlamayan ata-bala müxtəlif işarələrin, hərəkətlərin vasitəsilə guya söhbət edirdilər. Qız-gəlin isə onların başının üstündə dayanıb arvadın getməyindən danışırdı. Arvad xəbər göndəribmiş, o “nemes” getməyincə bu həyətə ayaq basmayacaq.

Odur ki, Qərib kişinin arvadı ilə görüşüb bu işə bir əncam çəkməsi üçün yalvarıb-yaxarırdılar. Qərib kişi isə “gedib, cəhənnəmə gedib”dən başqa bir söz demir, arada da qərarını möhürlə təsdiqləyirmiş kimi qolunu Annanın boynuna dolayıb özünə çəkərək yanaqlarından öpürdü.

Hələ də qızının boy-buxununa baxa-baxa ötən günlərini xatırlayan Qərib kişi yalnız alman inəyin xəstə böyürtüsünü eşidəndə xülyadan ayıldı. Həmişə arvada arxayın idi, özü olmayanda o baxırdı inəyə. Birdən yadına düşdü ki, bu gün inəyə baxan olmayıb. O dəqiqə tövləyə qaçdı.

Sonuncu alman inək də böyrü üstə uzanıb çapalayırdı. Tez qız-gəlini səslədi ki, evdən dava-dərman gətirsinlər. Özü isə inəyi qaşovlayırdı, ayaqlarını, bədənini ovxalayırdı. Anna da öz dilində gah atasına, gah inəyə ünvanlanmış sözlər deyir, inəyin başını dizinin üstünə alıb sığallayırdı.

Qərib kişi iynə hazırlayıb vurdu. Sonra qızlarla köməkləşib inəyin ağzını ayırdı və dərman damızdırdı. Amma nə iynənin, nə də dərmanın təsiri oldu. İnək çabalaya-çabalaya böyürürdü. İnəyin böyürtüsü, Annanın qışqırıqlarına, almanca dediyi sözlərə qarışmışdı.

Bir anda Qərib kişi bütün planlarını gözünün önündən keçirdi. Qızın toyu, götürdüyü heyvanların krediti, dolanışığı. Axırıncı alman inək də ölürdü. O biri ikisi eləcə canını tapşırmışdı, barı bunu kəsib ətini kolbasa sexinə verərdi. Beş-on manat da qənimətdi. Odur ki, cəld gəlini bıçaq dalınca yolladı. Özü isə tövlənin atmasından keçirilmiş kəndiri götürüb inəyin ayaqlarını bağladı.

Anna nə baş verdiyini başa düşmədi. Elə bircə onu gördü ki, bıçağın tiyəsi inəyin qalın boyun dərisinə sürtüldü. İnəyin kəsilmiş boynundan fışqıran qan üz-gözünə, pal-paltarına sıçradı. Qız əllərini üzünə aparıb var gücü ilə bağırdı və sonra özündən getdi. Gəlin-qız Annanı sürüyərək tövlədən çıxardı.

Qərib kişi inəyin başını bədənindən ayırandan sonra əsəbi halda tövlədən çıxdı. Heyvanların ölməsi heç, qızın belə qorxacaq olması onu əsəbiləşdirmişdi. Lap acığı tutmuşdu qızına. Adam da bir heyvana görə ağlayıb vay-şivən salar, özündən gedər? Ona görə də acığından yarı uzanıqlı vəziyyətdə su çəninə söykədilmiş

qızına tərəf getmədi. Cansız cəsəd kimi hərəkətsiz qalmış, üz-gözü qana bulaşıqlı Annaya baxıb laqeydcəsinə başını buladı. Yanında dayanmış qız atasının bir az yumşaldığını görüb sual verdi:

- Ata, bu mal niyə öldü?

- Nə bilim, a bala, yəqin almanlara buranın havası düşmür.

Sonra bir daha Annaya tərəf baxdı və ucadan əlavə elədi:

- A gəlin, mıxçadan şapkamı ver, gedirəm ananı gətirməyə.

***mart-iyun 2013***

## MƏRƏZ

- Arvad, ta dözə bilmirəm.

Pəncərə qabağındakı stolun arxasında əyləşib həyətdə çəpər düzəldən oğluna tamaşa edən yaşlı kişi astadan dedi. Qapı kandarında əyləşmiş arvadı badımcan soyurdu. Əllərini döşəməyə dayayıb ağır-ağır ayağa duran qadın ərinə yaxınlaşdı. Astadan qulağına:

- Çil çolpanı kəsim?-dedi.

- Bilmirəm, ay arvad. Bilmirəm. Ürəyim partlayır! Guya canıma sinir?! Hər dəfə elə bilirəm zəqqum yeyirəm. – Kişi bunu deyib kişi susdu. Əlini atıb stolun üstündəki filtrsiz “Astra”dan birini alışdırdı. Üzünü yenidən pəncərəyə çevirdi. Bu dəfə dağılıb köhnəlmiş çəpəri düzəldən oğluna deyil, ucsuz-bucaqsız çöllüyə zillədi gözlərini.

Bütün ömrünü dağda çobanlıqla keçirmişdi. Əsgərlik etdiyi qarlı Sibir meşəlikləri nəzərə alınmazsa, heç vaxt doğulduğu kəndi, onun dağlarını tərk eləməmişdi. Həyatı boyu kolxozun sürülərini, Sovet hökuməti dağılandan sonra da onun-bunun qoyunlarını otarmışdı. Bu müddət ərzində isə ömür-gün yoldaşı Aliyədən üç oğlu,

altı qızı olmuşdu. Böyük oğlu ali məktəbi bitirəndən bəri Bakıda yaşayırdı. Üç qızını lap çoxdan köçürmüşdü. Kiçik oğlunu isə ortancıl oğluyla gəlinindən, iki körpə nəvəsindən, arvadından, 13-20-25 yaşlarında üç qızından ibarət böyük ailəsi Laçından qaçqın düşməmişdən beş ay əvvəl şəhid vermişdi.

O qaçarda digər həmkəndliləri kimi evdə, həyət-bacada əllərinə keçən kilim-palazdan, toyuq-cücədən, stəkan-nəlbəkidən, yorğan-döşəkdən qollarına vurub doluşmuşdular yük maşınının kuzovuna, üz tutmuşdular Bakıya. Bakıda böyük oğlunun kirayə olduğu birotaqlı, dar-dalış mənzildə iki ay qaldıqdan sonra günlərin birində polis işləyən ortancıl oğlu sevincək özünü qapıdan içəri atıb nəhayət təyinat aldığını söyləmişdi. Beləcə ailə barxanasını toplayıb üz tutmuşdu Kür çayının qoynunda yerləşən rayonlardan birinə.

Burada onlar üçün o qədər də pis olmadı. Ortancıl oğlu yeni rəisinin qəbulundan çıxandan dərhal sonra bütün ailə icra nümayəndəsinin müşayəti ilə dağ adamı üçün bir o qədər səfalı sayılmasa da Kürün sahilində, mənzərəli yerdə yerləşən yiyəsiz bir evə gəldilər. Çaydan əsən sərt küləklərin qəzəbinə tuş gəlmiş qapı-pəncərəsi köhnə-külə, sınıq-salxaq olsa da, evin iki ortabab otağı və aynabəndi vardı. Doqquz nəfərlik ailə bu evə rahatca yerləşərdi. Düzdür ev damırdı, hələ üstəlik saman möhrəli divarları döşəmə tərəfdən urlayıb tökülmüşdü, döşəmə isə çürüyüb ayaqdan çıxmışdı. Nümayəndə bunları bekara şey adlandırıb icra hakimiyyətinin evi tezliklə təmir etdirəcəyini söylədi. Amma onlar təmiri gözləmədilər. Tezcə kilim-palazlarını, yorğan-döşəklərini sərib evi döşədilər. İsmayıl isə ailə yerbəyer olandan sonra elə polis formasınındaca bayıra çıxıb kommersiya dükanlarının birindən aldığı çay-çörəklə birlikdə boş karton qutular da gətirdi. Karton parçaları ilə pəncərələrin şüşəsi sınmış gözlərini birtəhər qapadı.

Tezliklə ailə Aran rayonunun bu balaca, yarımcan evinə öyrəşdi. Rayon sakinləri, qonşular da qaçqın qonaqlarına biganə deyildilər. Tez-tez yardım edir, əllərindən gələn köməkliyi əsirgəmirdilər. Xeyirdə-şərdə şordan-pendirdən, paydan-parçadan verirdilər. Xeyriyyə təşkilatları, səfirliklər, icra hakimiyyəti də bu böyük qaçqın ailəsini unutmurdu. Bayramlarda, əlamətdar günlərdə humanitar yardım alırdılar. Bu yardıma çay, qənd, şəkər, düyü, un, kartof, soğanla yanaşı Amerika istehsalı olan toyuq əti, bud, dondurulmuş mal əti də daxil idi. Əlqərəz, ailənin qida rasionunda tamı, dadı ilə kənd heyvanınkından fərqlənsə belə ət də vardı. İsmayılın cüzi maaşına isə çatışmayan şeylər alınırdı.

Ailə dolanışıqdan narazı deyildi. Ağır qaçqınlıq taleyi yaşasalar da şükür içində güzəranlarını sürürdülər. Təkcə ailənin qoca başçısından başqa. O günü-gündən arıqlayır, sınıxıb çöpə dönürdü. İndiyədək bircə dəfə də yatağa düşməmiş bu adam axır vaxtlar tez-tez xəstələnir, günlərlə döşəkdən qalxmırdı. Quzu qonaqlığı qarşılığında bir zabitdən hədiyyə aldığı buşlatın içində əriyib qorxuluğa dönmüşdü. Saç-saqqalına da qabaqkı kimi fikir vermirdi. "Astra" çəkməkdən qalın qaytan bığları saralıb karton kağızına dönmüşdü, ağ saçları qulaqlarının dibindən pırtlayıb çıxmışdı. Evdə onun dərdini qırx illik ömür-gün yoldaşıyla oğlundan başqa heç

kim bilmirdi. Heç o özü də dərdini açıb ağartmırdı. Bütün  günü ya yerdən salınma yatağında yatır, ya da pəncərə qabağında qoyulmuş stolun qabağında əyləşib ucsuz-bucaqsız düzənliyə tamaşa edir, ömrünü qoyun-quzu otarmaqla keçirdiyi doğma dağları düşünürdü.

Evin qalan sakinləri isə qocanın bu davranışını oğlunu itirməsi ilə, onun bu dərdə davam gətirə bilməməsi ilə əlaqələndirirdi. Qız-gəlinin fikrinə görə oğul itkisi onu dondurma kimi əridib çöpə döndərmişdi. Amma onlar bilmirdilər ki, oğul itkisi nə qədər ağır olsa da ata bu bədbəxtliklə çoxdan barışıb. Onu üzən başqa dərd idi.

Qoca soyuducuya girib-çıxmış ətə ağzını vurmazdı. Bu da onun mərəzi idi. Ta uşaqlığından dağın-dərənin məlhəmli, şəfalı otlarından yemiş qoyun-quzunun əti ilə bəslənən balaca İbrahimin böyüyəndən sonra kolxozun sürülərinə çoban keçməklə mərəzi lap ayaq almışdı. Evində həmişə ət xörəyi asılar, mal-qoyun əti olmayanda isə heç olmasa həyətdəki toyuq-cücədən bir-ikisi kəsilərdi.

Həmişə təzə kəsilmiş ət xörəyi yeməyi ilə öyünmüş İbrahim kişi ömrünün qürub vaxtında umsuğa dönmüşdü. Vaxtilə dağ döşündə, bulaq başında xalıdan-xalçadan sərib qara quzunun ətindən çəkilmiş kababdan dişinə çəkən İbrahim kişi qaçqın düşüb bu Aran rayonuna pənah gətirəndən sonra aylarla ət üzünə həsrət qalmışdı. Uşaqlar arada humanitar yardım kimi verilən dondurulmuş mal-toyuq ətindən yesələr də o belə şeyləri dilinə vurmurdu. Canında durum olmasa da bitki yeməkləri ilə kifayətlənərdi. Bu vaxt ərzində yalnız bir dəfə qonşuda toy olanda təzə ət kababı yemişdi. Pay verilmiş bir nimçə tikə kababdan ona lap bir çimdik sümüklü ət düşmüşdü. O, süfrə başında ətin sümüyünü utana-utana, hiss etdirmədən qoxlamış, sonra da bir xeyli sümürmüşdü.

Yaxşı ki, özü çimkinə-çimkinə bud yeməkləri yeyən Aliyə arvad onu başa düşürdü. Qaçqın düşən vaxt özləri ilə gətirdikləri beş toyuqdan üçünü uşaqlardan gizlin kəsib, bişirib ərinə  yedirtmişdi. Aliyə anlayırdı ki, toyuğu kəsib bütün ailə üçün bir qazan xörək assa, həmişə bir oturuma bir şaqqa qoyun yeyən əri, bu bir tikə toyuq ətiylə öz mərəzini öldürə bilməyəcək. Buna görə də kişinin mərəzi lap güclənəndə bir mahna tapıb qız-gəlinləri evdən eləyir, sonra da paçasının arasına oxlov alıb toyuğun birini kəsirdi.

Tezcənə onu yolub başını, tükünü, bağırsağını həyətdə basdırır, əlüstü bir xörək bişirib kişiyə yedirirdi. Sonra da bulaşıq qazan-boşabı təmiz yuyub izi itirirdi. İbrahim kişi hər dəfə arvadına qarşı çıxsa da xörək süfrəyə gələndən sonra tab gətirə bilmir, yeməyə girişirdi. Atasının dərdinə çarə axtaran İsmayıl hər dəfə məvacib alanda maaşdan bir az qırtıb təzə ət almağı, evdə xörək asdırmağı düşünsə də, pul ərzağın borcunu ödəməyə güclə yetirdi.

- Ay bala, əlindəki işi qoy qalsın. Sonra görərsən. Yaxşı hava var. Uşaqları da yığ, apar Kür qırağına, bir az təmiz hava alsınlar. Həkim gəlinə nahaq deməyib ki, uşağı təmiz havada çox gəzdir.

Məsələnin nə yerdə olduğunu dərhal anlayan İsmayıl körpə uşağını qucağına aldı. Yoldaşı və bacılarını da yanına alıb qapıdan çıxanda arvad artıq oxlovu mətbəxdəki taxçadan götürüb hazır dayanmışdı. Sevinə-sevinə gəzməyə gedən balalarının uzaqlaşan səsi tamamilə eşidilməz olanda o hinə qaçıb çil toyuğu tezcə qapdı...

Uşaqlar gəzməkdən qayıdanda kişi özünə gəlmişdi. Ayaqaltıdakı pilləkəndə oturub siqaret çəkə-çəkə gözlərini üfüqə dikmişdi. Qoca nədənsə onlara sarı baxmadı. Hətta bir az xəcalət çəkən kimi oldu. Heç nə anlamayan qız-gəlin öz işinə getdi. Yalnız axşam hinin ağzını bağlayan dəcəl kiçik qız cəmi bir toyuğun qaldığını gördükdə həyətin o bir başında iş görən anasını səsləyib çil toyuğun hində olmadığını söylədi. Arvad cırılıb çəkələtə dönmüş qaloşunu çıxarıb qızına tolazladı və ustufunu pozmadan söylədi:

- Çil toyuğu tülkü apardı.

**yanvar 2010**

## SU PƏRİSİ

Surxay gözlərini açanda dan yeri təzəcə ağarırdı. Göyüzünə səpələnmiş yastı buludlar şirin pambıq kimi çəhrayı rəngə boyanmışdı. Gözlərini qaldırıb ətrafa nəzər saldı. Sahil boyu uzanan yulğun kolları başdan-başa şehə bələnmişdi. Ətrafı yulğun kollarının düyüvari yarpaqlarından süzülən şeh damlalarının islatdığı şoran torpağın duzlu tamı ilə yulğunluğun turşməzəqarışıq qoxusu bürümüşdü.

O, birdən-birə özünə gəldi. Xəfifcə başı ağrıyırdı. Axşam içdiyi arağın təsiri hələ qalmışdı. Ayağa qalxıb özünə baxanda çılpaq olduğunu anladı. Çölün düzündə lüt

olmasından bir anlıq utanc hissi keçirən Surxay tezcə əl atıb bayaq başını qoyduğu selofan paketdən paltarlarını çıxarıb geyinməyə başladı.

Surxayın 40 yaşı vardı. Orta boylu idi. Təbii ki, qarın sarıdan onun da bəxti gətirmişdi. Şalvarını nə qədər yuxarı çəksə də toqqası qasığının üstündən bir santım də yuxarı qalxmazdı. Buna baxmayaraq xeyli çevik idi.

Sovet vaxtı uzun müddət kolxozda aqronom işləmişdi. Sovetlər dağılandan sonra ona verilmiş pay torpağını əkib-becərməklə güzəranını keçirirdi. Digər kəndlilər kimi o da on hektarlıq pay torpağına taxıl əkir, iyunda, biçin zamanı yığdığı məhsulu Bakıdan gələn dəllalara məcburiyyət qarşısında dəyər-dəyməzinə satıb ilboyu nisyə mal aldığı dükanda borcunu bir xeyli azaldırdı. Məhsulu saxlayıb payızda xird eləməyin də bir mənası yox idi. Dəllallar demək olar ki, payızda da taxılı yaydakı qiymətə alırdılar. Həm də saxlanma şəraiti olmadığından payıza qədər taxılın bir hissəsini siçovullar daşıyıb aparır, digər hissəsi də quruduğuna görə çəkisi azalırdı. Bununla belə taxıl əkməyindən qalmırdı. Əksər kəndlilər belə edirdilər. Yığdıqları məhsulu uyğun qiymətə satıb xərclərini ödəyə bilməsələr də, taxıl əkinini davam etdirir, qazandıqları gəlirlə heç olmaya ilboyu nisyə mal götürdükləri mağazaların borclarını ödəməyə çalışırdılar.

Surxayın həyət-bacasında da üzüm, nar, alma, armud, gavalı, gilas və başqa meyvə ağacları vardı, bostanda xiyar, badımcan, pomidor əkir, bütün ailə bu həyətdən dolanır, hələ üstəlik bazara çıxarıb satmağa da bir şey qalırdı. Həyətdəki mal-qaranın, toyuq-cücənin xeyri də öz yerində.

Surxayın təsərrüfatdan gələn qazancı yeddi nəfərlik ailəni saxlamağa birtəhər bəs edərdi. Lakin toylar ona bu fürsəti tanımırdı.

Uzun müdət kolxozda aqronom işləmiş Surxayı təkcə öz kəndlərində deyil, ətraf kəndlərdə, qonşu rayonlarda, Kürün o tayında da tanıyırdılar. Bu geniş dost-tanış çevrəsi hər ay azı bir dənə toy dəvətnaməsi demək idi. Düzdür, hər ay toya gedib nəmər salmaq kasıb ailə üçün öhdəsindən asanlıqla gəlinəsi iş deyildi.

Artıq beş aydan çox idi ki, qızını xalası nəvəsinə nişanlamışdı. Oğlan evi bu yaxınlarda gəlini aparmağa hazırlaşırdı. Əlində cehiz almağa nağd pulu olmadığı üçün o da hamı kimi toydan yığılacaq vəsaitə gözünü dikmişdi. Cehizi rayondakı mağazaların birindən nisyə götürüb sonra toydan yığılan pulla ödəmək olardı. Qızının toyu üçün saxlayıb böyütdüyü cöngəni satmasaydı, bu toy onun üçün bir o qədər problemli məsələ olmazdı. Oktyabrda əsgərlikdən qayıtmış oğlunu rayonda mühafizə xidmətinə işə götürmək üçün ondan bir cöngənin pulunu istəmişdilər. Tanış-bilişlə məsləhətləşmələrdən sonra bir cöngənin puluna oğlanı Rayon Mühafizə Xidmətinə işə düzəltməyin sərfəli olduğunu öyrənmişdi. Maaşı az olsa da mühafizə işçiləri həm əl-ayaqları təmiz bütün günü formada gəzirlər, həm də arada mühafizə olunan ərazilərə icazəsiz daxil olanlara, qanunları pozanlara xox gəlib 5-10 manat qabağa düşürlər. Surxay da məsləhətə uyub qızının toyu üçün

saxladığı cöngəni satıb oğlunu işə düzəltdirmişdi. Amma hələ ki, oğlunun çax-çuxunu görməmişdi.

Cöngə də əldən çıxdığına görə axır vaxtlar narahatlığı ikiqat artmışdı. Bir də görürdün gecə yatdığı yerdə qəfil ayıldı, eləcə tumanda həyətə düşüb o baş bu baş var-gəl etməyə başladı. Həyətdə bir xeyli gəzib dolaşdıqdan sonra nəhayət toxtayıb gəlib uzanırdı yerinə. Bundan sonra da yuxu onu aparmırdı. İşığı yandırıb arvadı da oyadırdı. Yatağın içində oturub Surxayın ta cavanlığından indiyə kimi getdiyi toyları sayıb-sadalamağa başlayırdılar. Siyahı tuturdular, yazdırdıqları nəmərləri hesablayır, bu dünyadan köçənləri, başqa şəhərə köçənləri, varlını, kasıbı, xəsisi, səxavətlini ayırd edir, kimin toyuna nə vaxt, nə qədər pul saldıqlarını, həmin pulun ekvivalentinin hazırda nə qədər olduğunu dəqiqləşdirirdilər. Bu yuxusuz gecələrin birində belə qərara gəlmişdilər ki, qızın toyunadək Surxay çağırıldığı heç bir toydan qalmasın. Bütün toylara gedib əmməlicə nəmər yazdırsın ki, qızın toyunda da yaxşı pul yığa bilsinlər. Eybi yox, toya qədər birtəhər dolanarlar.

Surxayla arvadının son planları belə olmuşdu.

Dünənə Surxayın iki dəvətnaməsi var idi. Toyun biri kənddə, digəri isə Kürün o tayında-Tataraməhlə kəndində idi. Vaxtilə kolxozda bir yerdə işlədikləri Alməmmədin oğlunun toyu idi. Surxay əvvəlcə kənddəki toya oğlunu göndərmək, o taydakı toya isə özü getmək istəmişdi. Srağagün məlum olanda ki, oğlu dünənə gecə növbəsinə düşür, Surxay qərara aldı ki, kənddəki toya da özü getsin. Bu toydan çıxandan sonra isə bir maşın danışıb özünü verər o taydakı toya. Buna görə də kənddəki toyda çox oturmamağı planlaşdırmışdı.

Toyda başı dostları ilə əmməllicə yeyib-içməyə qarışan Surxay bir də ayılır ki, gecə saat on birdir. Başılovlu toydan çıxıb Kürün qırağı ilə səntirləyə-səntirləyə üz tutur kəndin ortasından keçən, kəndlilərin Böyük yol adlandırdıqları yola sarı. Yolda zəng etdiyi taksisürənçilik həmkəndlisi də telefona cavab vermir.

Tataraməhləyə piyada getmək isə çox müşkül məsələdi; gərək üç kənd qabağa gedib körpünü keçəndən sonra, yenə də getdiyin qədər geri qayıdasan. Tataraməhlə kəndi Astanlı ilə qabaqqənşər idi- biri çayın bu sahilində, digəri o biri sahilində . Surxayın dayandığı yerdən baxanda o tayda, dostunun həyətində qurulmuş mağarın tutqun işıqlarını görmək olurdu. Surxay birdən səmtini dəyişib özünü verdi yulğunluğa, sahilə.

Ehtiyat üçün həmişə şalvarının arxa cibində gəzdirdiyi selofan paketi çıxarıb əvvəlcə səliqə ilə soyunub büküdüyü köynəyini, şalvarını, maykasını, ən nəhayət də tursikini onun içinə yığdı. Ən üstdən isə ayaqqabısını qoydu. Mobil telefonu şalvarın qayışına keçirilmiş qoburunda idi. Kürün bu qaranlıq, issiz sahilində lüt-anadangəlmə qalan Surxayın bədəni ayı kimi tüklü olduğundan çılpaqlığı qaranlıqda bir o qədər hiss olunmurdu. Surxay selofan paketin ağzını möhkəm bağlayıb bir əlinə aldı. Soyuqluğu bədəninə xoş sərinlik yayan palçığa ayaqlarını

topuğa qədər basa –basa ehtiyatla suya girdi. Dərinə getdikcə suyun üzündə əmələ gələn dairəciklər uzaqlaşaraq daha da böyüyür, qaranlıqda qeyb olurdular. Bədənini titrədən soyuq suyun təsirindən dəmliyi bir az keçən Surxay çiyninə kimi suda görünməz olanda qollarını açıb üzməyə başladı.

Surxay paltarlarını geyinib çömbəldi. Göyüzü ağarmağa başlamışdı. Siqaret yandırıb gecə olanları yadına salmağa çalışdı. Toydan çıxıb taksiyə zəng eləməyini, yulğunluğa burulub sahilə gəlməyini, yeniyetmə çağlarında Tataraməhləyə toya baxmağa gedəndə o vaxt hələ Kürün bu tayla o tayını birləşdirən körpünün olmamağına görə yoldaşları ilə sahilə gəlib, paltarlarını çıxarıb salofan paketə qoyub üzə-üzə çayı keçib toya getdikləri kimi eləmək istəyib paltarlarını soyunmağını, suya girməyini, Kürün ortasında ayağının tutulmağını, çapalamağını, boğulmağını xatırladı.

Sonra kimsə sudan boy verib ona sarı yaxınlaşdı. Çiynindən yapışıb başını sudan qaldırdı. Uzun saçları, qaranlıqda pişiyinki kimi parıldayan yaşıl gözləri, gümüşü üzgəcləri, bozumtul, çılpaq qadın bədənini xatırladı. Bədənindən rəşə keçdi. Hövlank ayağa qalxıb siqareti suya tulladı. Heyvanların açdığı dar cığırla yulğunlara sürtünə-sürtünə kənd yoluna çıxmamışdan qabaq çevrilib ağaran dan yerininin işığında Kürün bir qazan qaynar qurğuşun kimi buğlanan bulanıq suyuna baxdı.

Surxay onu su pərisinin xilas etməsinə heç cür inanmaq istəmirdi.

**2010**